# ELŞAD SƏFƏRLİNİN "TÜRKANƏ SÖZ"Ü



**Şəddat CƏFƏROV**
***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

Nizami dünya ədəbiyyatının görkəmli simalarından biri sayılır. Təkcə ona görə yox ki, o çox dəyərli əsərlər müəllifidir. Yaradıcılığında bədiiliyin ən yüksək zirvəsini fəth etdiyi üçün bu gün də oxucular tərəfindən sevilə-sevilə mütaliə olunur. İnsanlar arasında mənəvi nizamın qorunub-saxlanılması üçün onun əsərlərindən nümunələr yeri gəldikcə xatırlanır. Əxlaqi, hüquqi məsələlərdə bəşəri dəyər kimi ona istinad olunur. Bunun bir səbəbi də odur ki, Nizami həyat həqiqətinə nə qədər sadiq olsa da, bədii həqiqəti də qədərincə uca tutur. Təxəyyülünün sonsuz fəzalarında sözə cila verərək sevilən obrazlar sistemi yaradır.

Əlbəttə, hər bir yazıçı üçün, hər bir sənətkar üçün həyat həqiqəti əsasdır. Ancaq bu o demək deyil ki, həyatda olan həqiqəti olduğu kimi yazıya köçürəsən. Bu çox quru və sxematik olardı. Yəqin ki, heç oxucuda da maraq doğurmazdı.

Yəqin ki, hər bir yaradıcı şəxs öz əsərlərində həyat həqiqətinə istinad edərək təxəyyülünə də geniş meydan verir. Bir qədər obrazlı desək, yalansız keçinə bilmir. Hətta yalanla bağlı Nizamidən çox sonralar Füzuli də deyirdi ki, *"aldanma şair sözünə ki, əlbəttə, yalandır"*.

İş burasındadır ki, Nizami də yeri gəldikcə *"yalan"*sız keçinə bilmir. Amma Nizaminin *"yalan"*ı şəxsin xüsusi marağına uyğun olaraq cəmiyyətə sırıdığı qənaət deyil. Nizami *"yalan"*ının arxasında onun həyata, cəmiyyətə və əlbəttə ki, həm də yaratdığı obraza münasibəti dayanır. Bu münasibətin mahiyyəti bizə öyrədir ki, Nizami sözlərinin mənasına, mahiyyətinə varaq. Onda Nizaminin "yalan"ı necə işlətməsinin sirrini və səbəbini aydın dərk edə bilərik.

Elşad Səfərli Nizamidən əvvəl Firdovsinin, Nizamidən sonra Arif Ərdəbilinin işlətdiyi yalanlarla Nizaminin yalanlarını müqayisəyə çəkir. Sanki psixoloji tədqiqat aparır. Nəyin əsaslı, nəyin əsaslı olduğuna diqqəti yönəldərək yazır: *"Bir məqama da diqqət etmək lazımdır ki, Nizami saxta dastanlardan gələn yalanı tarixi hadisələrin, qondarma əhvalatların və şəxsiyyətin tərcümeyi-hal, yaxud mənşələrinin təhrif edilməsi ilə bağlayırdı. Amma Nizami fəxriyyəsində söylədiyi "yalan" isə yuxarıda sadaladığımız "yalanla" heç də eyni mahiyyətdə deyil, başqa məzmun daşıyır. Bu "yalan" artıq ideya - məzmun, yaxud qondarmaçılıq məsələsi deyil. Bu məqam bizə, yuxarıda prof. Y.Seyidovun - "yalan heç vaxt əsil sənət əsərinin, eləcə də şeirin məziyyəti olmamış və ola bilməz" düşüncəsinə nisbətən fərqli düşünməyə əsas verir. Söhbət əgər "yalanın" məziyyətindən gedirsə, deməli, həmin "yalan" - müstəqim mənasındakı yalan deyil. Əgər bu yalan müstəqim mənadadırsa, onda "şeirin ən yaxşısı ən yalan olanıdır" fikrinin bu "yalan"la nə əlaqəsi ola bilər və yaxşı şeir üçün onu məziyyət saymaq nə qədər məntiqidir?"*. Göründüyü kimi, Elşad Səfərli şair düşüncəsindəki yalanın üzərində psixoloji tədqiqatı ilə maraqlı qənaətə gəlir; *"şeirin ən yaxşısı ən yalan olanıdır"*. Söz yox ki, burada yalan mütləq həqiqət mənasında başa düşülmür. Şeirin ən yaxşısı obrazların məcazlarla ifadə olunanıdır.

Yəqin ki, hər bir sənətkar, eləcə də, tədqiqatçılar yaxşı bilir ki, söhbət çılpaq yalandan getmir. Həqiqətin təhrifindən söhbət gedə bilməz. Şair yaratdığı obrazın qüdrətini göstərmək üçün ona oxucunun xüsusi şirinliklə qəbul edəcəyi mübaliğəli fon verir. Bu da istər-istəməz şairin əsərinə xüsusi maraq doğurur.

Hər bir sənətkarın təsvir imkanlarından asılıdır ki, öz əsəri ətrafında necə cazibə yaradır. Başqa sözlə, yalanlardan necə istifadə edir.

Elşad Səfərli *"yalan"* üzərindəki psixoloji tədqiqatını davam etdirərək yazır: *"Haqlı sual doğur. Bəs onda bu nə "yalandır"? Cavabı çox sadədir - bu "yalan" bədii təsvir və ifadə vasitələri - qısaca, məcazlar sistemi ilə bağlı yaranan və bədii həqiqət kimi səciyyələnən - "doğruya bənzəyən yalandır". Bildiyimiz kimi məcazlar bədii əsərin mükəmməlliyində, obrazlılığın güclənməsində müstəsna xidmətə malikdir. Bunlarsız kamil bədii əsərdən söhbət gedə bilməz. Bədii əsərin, obraz və surətlərin oxucuya təsir effektini gücləndirən, onun üçün böyük maraq, sehir, cazibə yaradan məhz məcazlar sistemi, onların növləri və poetik fiqurlarıdır. Elə məcaz növləri var ki, onların yaratdığı məzmun - əgər sənətdə şərtilik və bədiiliyə xidmət tələbini, məcazilik prinsipini unutsaq - yalan kimi görünə bilər. Bu cəhət bütün məcaz növlərinə aid deyil, amma bunların sırasında mübaliğə (hiperbola), litota və digər məcaz növlərindən istifadə zamanı yaranan yeni məzmunun kiməsə "yalan" təsir bağışlaması mümkündür. Əslində bu "yalan" yox, bədii həqiqətə xidmət edən obrazlı vasitədir. Nizami "şeirin yaxşısı onun ən yalanıdır" deyəndə məhz bu məcazilik və yüksək təsvir effektini onun məziyyəti kimi nəzərdə tuturdu. Əks təqdirdə həqiqətə, bədiiliyə xidmət etməyən "yalan" necə bədii əsər üçün məziyyət sayıla bilər?"*. Elşad Səfərli Nizaminin "yalan"a münasibətini demək olar ki, bütün incəliklərinə qədər izləyir. Hətta bu yöndə Nizamidən sonrakı dövrün sənətkarı kimi Arif Ərdəbilinin də mövqeyinə işıq salır: *"A.Ərdəbilini Nizaminin "doğru", "yalan" prinsipinə münasibətdə yanlışlığa sövq edən amil, məhz onun sənətdə şərtilik tələbini diqqətdən qaçırması ilə bağlıdır. Və deyirdi ki, Nizami desə də ki:*

*Var doğru yazmağa madam ki, imkan*
*Neyçün gərək gəlsin ortaya yalan.*

*Ancaq o, səmimi olmamış, öz dediklərinin əksinə getmişdir. Yaxud da qeyd edir ki, Nizami bədii təxəyyülünə olduqca sərbəstlik vermiş, ağla, məntiqə uyğunluq qaydalarına zidd təsvirlər qondarmış, obraz, surət və hadisələri olduqca şişirtmiş, yaradıcılığın bəzi nizamlarını pozmuş, təxəyyül prinsiplərini təhrif etməklə bir növ yalana yol vermişdir"*. Bəli, Nizami hələ zamanında həqiqətə, əlbəttə ki, həyat həqiqətinə sadiq qalmağı nə demək olduğunu yaxşı bilmiş, həm dövrünün sənətkarlarına, həm də özündən sonra gələnlərə tutarlı hökm səviyyəsində hikmətlə mövqeyini bildirmişdir.

Elşad Səfərli qeyd edir ki, *"A.Ərdəbili bunu daha çox Nizaminin mübaliğələri ilə əlaqələndirir. Belə ki, Şirinlə Xosrov çadırda olanda şir çadıra daxil olmaq istərkən Xosrov onun alnından yumruqla vurub öldürməsini ağla, həqiqətə uyğun olmayan yalan kimi qələmə vermiş və əsaslandırmışdır ki, bir yumruqla şiri yox, bir neçə milçəyi öldürmək olar. Yaxud Şirinin çayda çimməsini görən zaman Xosrovun süstlük göstərməsini də kişiyə yaraşmayan hərəkət, əlamət adlandırmış, bunu yalan təsvir hesab etmişdir. Ümumiyyətlə, Nizami Gəncəvi yaradıcılığında bədii təsvir və ifadələr sırasında mübaliğədən istifadə həddən ziyadə çoxdur. Şairin bundan məqamına görə istifadə etməsi surətin, obrazın, hadisənin təsir gücünü artırmaqla yanaşı, həm də konkret olaraq insanın gücünü, qüdrətini göstərirdi. Və Xosrovun da bir yumruqla şiri öldürməsi onun bir hökmdar kimi həm də böyük fiziki gücə malik olmasını göstərmişdir. Ancaq A.Ərdəbil Nizami mübaliğələrinin bu mahiyyətini qəbul edə bilməmiş, şairi etidala riayət etməməkdə, həddindən artıq şişirtməyə yol verməkdə günahlandırmışdır"*. Göründüyü kimi tədqiqatçı son dərəcə maraqlı faktlara yol açır. Hətta Xosrovun gücünü, qüdrətini göstərmək üçün bir yumruğunun nəyə qadir olduğunu da qeyd edir. Amma hər bir oxucu bunu sadəcə Nizaminin obraza münasibəti kimi qavrayır.

Nizami yaradıcılığında elmdən kənarda mütləq həqiqət kimi heç nəyi qəbul etmirdi. Təsadüfi deyil ki, onun qızıla bükülməli kəlamı bu gün də dünya elm mərkəzlərinin foyelərində asılıb:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

Hətta bu söz o qədər kəsərli və itidir ki, bütün ekstrasenslər, cadügərlər, şarlatanlar üçün ən tutarlı cavabdır.

Nizami Gəncəvi elmi məntiqə uyğun gəlməyən, hətta həyat həqiqəti ilə uzlaşmayan məsələlərə də yalnız doğruluq mövqeyindən qiymət verməyə çalışmışdır. Çünki onun düşüncəsində yalnız belə bir məntiq hakim idi ki, kainatın özünü də nizamda həqiqət saxlayır.

Elşad Səfərlinin qənaətlərində göstərildiyi kimi, Nizami yeri gəldikcə həddən artıq yol verdiyi şişirtmələrə də özünün tənqidi münasibətini ustalıqla bildirir. Hətta ağlabatan nəsə olmayanda onu haradansa eşitdiyini, hansısa bir rəvayətdə xatırlandığını da diqqətə çəkir.

Şəbdiz Nizami təsvirlərində Xosrovun atı kimi təqdim olunur. Hətta bu atın bala verməsi haqqında fikrin həqiqətə uyğun olmadığını bildiyi üçün mənbəni nağıl dilindən gəldiyini bildirir. Yaxud Fərhadın külüngünün sapı ilə bağlı olan əhvalat. Bunun özü də oxucuda xüsusi cazibə yaratmaq məqsədi ilə işlənib. Və bu məqamların şərhini Elşad Səfərli çox ustalıqla verir: *"Qeyd edək ki, Arifin Nizamidə qeyri-təbii, "yalan" təsvirlər axtarması bəzi sənət kriteriyalarını unutması kimi bir şeydir. Çünki ustad şair təsvirlərində hətta "doğruya bənzəyən yalan"a da yer verdiyi məqamlarda həqiqət hissini itirməmiş, yaxud da oxucuya bu barədə müəyyən eyhamlar vurmuş, onu dərhal agah etməyə çalışmış, məsələnin məğzinin hardan gəlməsi - hansı kitab, mənbədən oxuması, kimdənsə eşitməsi, ya da rəvayət olması barədə xəbərdar etmişdir. Məsələn, şair qara rəngli "Şəbdiz" atın ayğır heykəlinə sürtünərək hamilə qalmasını rəvayət edərkən özünə müraciətlə - "Bu bəhsi tez qurtar, yoxsa o biri yazdıqlarımız üçün də şübhə doğurar", yaxud Fərhadın külüngünün sapı nar ağacından olduğuna görə ölərkən əlindən yaş torpağa düşüb cücərməsi, nar gətirməsi haqqında təsvirindən sonra - "Nizami bu ağacı görməyib, yalnız rəvayətini bir kitabdan oxumuşdur" - söyləyir. Yeri gəlmişkən, qeyd edək ki, M.Ə.-Rəsulzadənin də bu barədə fikirləri anoloji mahiyyətdə izahlıdır. Belə olan halda Nizamini "yalan təsvirlərdə" suçlamaq nə dərəcədə doğrudur?"*. Nizami Gəncəvi irsinin ən müxtəlif cəhətdən tədqiqatları aparılsa da, Elşad Səfərlinin *"Türkanə söz"ün misilsiz ustadı"* kitabında haqqında söhbət açdığımız məsələlər kifayət qədər əhatəli və məntiqi şərh olunur. Ən başlıcası, Elşad Səfərli həssas tədqiqatçı olaraq Nizami Gəncəvi irsindəki yalanların mahiyyətini çox doğru və dəqiq izah edir. Nəhayət, Elşad Səfərli özündən əvvəl Nizami irsi üzərində tədqiqat aparan müəlliflərin mövqeyinə son dərəcə hörmətlə yanaşır. Nəyin düz, nəyin səhv olduğuna dəqiq tədqiqatçı mövqeyini bildirməkdən başqa, fikirlərin hissi, emosional baxımdan hansı mahiyyət kəsb etdiyini də yazısında oxucu diqqətindən kənarda qoymur. Bu mənada o Rəsulzadənin fikirlərinə həssaslıqla yanaşır və xüsusi dəyər verir.

Azərbaycan ədəbiyyatının şərq ədəbiyyatı ilə birgə tədqiqindən belə bir mənzərə görünür ki, şairlər bədii əsərin cazibə gücünü bədii təsvir və ifadə vasitələrindən yerində və dəqiqliklə istifadə etməsi ilə bağlıdır.

Elşad Səfərli Nizami də daxil klassik ədəbiyyatımızda bədii təsvir və ifadə vasitələrinin roluna xüsusi dəyər verir: *"Bildiyimiz kimi, qədim dövr və ortaçağ poeziya nümunələrində məcazlardan, xüsusən də, mübaliğədən istifadə klassik irsin bədiilik, mükəmməllik keyfiyyətində ən mühüm göstəricidir. Məcazlar həm də sözlərin gizli məna-məzmun, sehir-möcüzə donudur. Sözün sadalanan keyfiyyətlətinin incələnməsi, məna-məzmun və məcazlar layının açıqlanması ilə bədii mətnin yüksək sənətkarlığı üzə çıxır, həmçinin şairin sözdə qüdrəti, böyük istedadı aşkarlanır. Ən gözəl sənət nümunələrində müəyyən məqamlar nə qədər mübaliğəli, dəbdəbəli və məcazlarla yüklənmiş görünsələr də həmin əlamətlər, əslində bədii mətni daha təsirli, oxucu üçün daha maraqlı edən göstəricilərdir. Buna görə də Nizami mübaliğələrə görə kiməsə "yalan" kimi görünən böyük həqiqətləri məhz məcaz, xüsusən də mübaliğə donuna bürüməklə öz əsərlərinin kamilliyini, ümummaraq səviyyəsində sevilməsini təmin etmişdir. Bədii əsərlər, məhz məcazların, mübaliğələrin hesabına kamilləşdiyinə görə, oxucuların rəğbətini və yaxşı əsər statusunu qazanmışdır. Buna görə də, obrazlılıqdan, məcazlardan uzaq əsərlər oxucuda heç bir bədii təsir yarada bilmədiyi üçün maraqsız - məcazlarla, mübaliğələrlə yaranan, təəssüf ki, bəziləri üçün "yalan" təsiri bağışlayan sərlər isə əsil oxucu üçün həmişə sevilən və oxunan əsərlər olmuşdur. "Şeirin yaxşısı onun ən yalanıdır" ifadəsi də, düşünürük ki, bu anlamda meydana gəlmişdir"*. Buraya qədərki qeydlər onu göstərir ki, Nizami yaradıcılığı böyük bəşəri həqiqətlər üzərində köklənib.

Elşad Səfərli Nizaminin yaradıcılıq xüsusiyyətlərini Nizaminin öz yaradıcılığı da daxil, onun yaradıcılığını tədqiq edənlərin qənaəti ilə birgə araşdırmış, nəinki mütəxəssis oxucular, hətta bütün mütaliəçilər üçün dəyərli bir tədqiqat əsəri yarada bilmişdir.

***(Davamı 11-ci səhifədə)***

# ELŞAD SƏFƏRLİNİN "TÜRKANƏ SÖZ"Ü

*(Əvvəli 10-cu səhifədə)*

Bizə elə gəlir ki, Elşad Səfərlinin bir tədqiqatçı kimi uğurunu şərtləndirən əsas amillərdən biri də təkcə Nizami irsinə dərindən bələdliyi deyil. Antik dövrdən bəri poeziya tədqiqatlarını mükəmməl mənimsəməsi, Şərq və Qərb düşüncəsində poeziyaya fərqli münasibətləri də öyrənməsi onun *"Türkanə söz"ün misilsiz ustadı"* tədqiqatını rövnəqləndirən əsas amillərdəndir. Məlumdur ki, Nizami və Dədə Qorqud Azərbaycanda ədəbi-fəlsəfi düşüncənin inkişafında misilsiz xidmətə malikdir. Uzun əsrlərdən bəri Nizami tədqiq olunduqca onun dərinlərdə gizlənmiş olan mənalar sistemi aşkara çıxır və bu da Azərbaycanda fəlsəfi düşüncənin inkişafına yüksək dərəcədə təsir göstərir. Nizami mövzularında çoxlu sayda əsərlər yaranıb. Mənzum və nəsr əsərləri, eləcə də, Nizami mövzularının öyrənilməsinə həsr olunan tədqiqatlar xalqımızın düşüncə sərvətinə çevrilib. Ədəbi-mənəvi xəzinəmizdə Nizaminin əvəzsiz rolu bir də onda özünü göstərir ki, hər bir dövrün tələbinə uyğun motivlər diqqətə çəkilir.

İkinci Dünya Müharibəsinin qanlı savaşları, faşizmə qarşı mübarizənin sərtliyi vətən mahiyyətini önə çəkmişdir. Məhz Səməd Vurğun həmin dövrdə *"Fərhad və Şirin"* facisəsini yaratmışdır. Bu əsər uzun müddət teatrlarımızın bəzəyi olmuşdur. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, *"Fərhad və Şirin"* faciəsi yeni quruluşda Azərbaycan tamaşaçısına sonsuz estetik zövq bəxş edə bilərdi. Çünki həmin əsərdə Fərhad həm də yenilməz bir qəhrəman, vətən sevdalısı kimi təqdim olunur.

*"Türkanə sözün misilsiz ustadı"* əsərində tədqiqatçının qarşısına qoyduğu əsas məqsədlərdən biri də Nizami sirlərinin dərinliyinə varmaqdır. Bunun üçün tədqüiqatçı Elşad Səfərli antik yunan ədəbi-fəlsəfi düşüncəsinə də baş vurur. Nizami sirlərinin açılması üçün Aristotel mülahizələrindən də açar kimi istifadə edir: *"Fikrimizin sübutu üçün Aristotel "Poetika"sının 24-cü fəslində işlənmiş "Yalanı necə məharətlə işlətmək üsulunu başqa şairlərə ən çox öyrədən də Homerdir"* cümləsi həqiqəti aşkarlamağa bizə müəyyən qədər əsas verir. Buna görə də *"yalan"*ı poeziyada inikas etdirmək məsələsi ilə əlaqədar mərhum prof. Aslan Aslanovun *"Aristotel poetikasının Şərq fəlsəfəsi və ədəbiyyatında mövqeyi"* məqaləsində bir məqama diqqət edək: *"İbn əl-Əsir, Əsməiyə əsaslanaraq belə nağıl etmişdir ki, onun fikrincə, fəsahətli şair o adamdır ki, onun şeirində, lazım gələrsə, hər hansı yalan və ya doğrunun mübaliğəsinə yol verilmiş olsun".* Göründüyü kimi, müəllif Aristotelin poetikasını diqqətə çəkir. Onun poeziyanın məziyyətləri haqqında mülahizələrinə aydınlıq gətirməyə çalışır. Yeri gəldikcə, Azərbaycan filosoflarının da mülahizələrindən faydalanır. Gətirilən qeyddən də göründüyü kimi Azərbaycan filosofu Aslan Aslanovun maraqlı bir məqaləsini də xatırladır və Aslan Aslanovun sözünün davamını da, eyni zamanda görkəmli filosofun fikirlərinə verdiyi şərhi də təqdim etməyimiz oxucu üçün çox maraqlı olardı: *"Şair yalnız (mübaliğəsiz) düz yazmağa başlayarsa, onun şeiri fəsahət və ahəngdarlıqdan məhrum olub zəifləyər".* Aslan Aslanovun bu qeydləri Nizami poeziyasının sirlərini açımına nə qədər kömək edirsə, müasir poeziyamızın inkişafı naminə şairlərin düşüncəsinə təsir etmək baxımından da çox əhəmiyyətlidir. Elşad Səfərli Aslan Aslanovun fikirlərini nümunə olaraq gətirdikdən sonra sözünə davam edir: *"Və sitatda verilən fikrin davamını məşhur ərəb şairi Həssanla bağlı bir söhbətə bağlayır. Bu həmin Həssandır ki, bu şairin böyük istedadına rəğmən əmisi Ömər Kafiyəddin Xaqaniyə Əcəm Həssanı ləqəbini vermişdir... Oxuculardan biri Həssana - sənin şeirin artıq qocalmışdır deyir. Həssanın cavabı isə bu olur ki, "ey mənim oğlum...şeirin lətafəti, incəliyi ondadır ki, şair hər hansı bir sahədə söz deyərsə, mübaliğəyə yol verib yalan, doğru o şey ki, lazımdır, onu şeirində verə bilsin. İndi isə islamiyyət "yalan" yazmağa qoymur. Elə bunun nəticəsidir ki, şeirin əvvəlki malik olduğu səviyyədə deyildir". Sitatda "indi isə islamiyyət yalan yazmağa qoymur"* hökmündə *"yalan"* sözü müstəqim xarakterik keyfiyyət və təsvir obyekti ola bilməz. *Nə Əbül Həssan, Homer, yaxud Nizami Gəncəvi "yalan" deyiləni müstəqim mənada götürməmişdir. Aristotelin özü də deyilən mənada "yalan"ı düşünməmişdir. Əks təqdirdə Aristotelin "poeziya tarixdən daha ciddi, daha fəlsəfidir" tezisi göydən asılı qalmış olardı. Əbül Həssanın deyimində işlətdiyi "mübaliğə" sözü daha çox bizi cəlb edir. Və "şeirin yaxşısı onun ən yalan olanıdır" tezisinin həlli də həmin "mübaliğə" ilə bağlıdır. Həssanın şeirinin zəifləməsi heç də onun islamaqədərki cahiliyyə dövründən sonra "yalan" yaza bilməməsi ilə bağlı yox, məhz şeirin poestrukturunda bədii təsvir və ifadə vasitələrindən, xüsusən də mübaliğələrdən istifadənin həddindən ziyadə azalması ilə bağlı olmasında idi".* Elşad Səfərlinin bu düşüncələrindən aydın olur ki, poeziyanın mükəmməl sənət məhsulu kimi formalaşmasında uzaq tarixi keçmişdəki qüdrətli şəxslərin düşüncə yenilikləri təkanverici təsirə malik olub. Elşad Səfərli də bu qeydlərində hətta müasir oxucunu təkcə elmi düşüncə baxımından yox, həm də mənəvi-estetik baxımdan zənginləşdirən məlumatlara müraciət etməsi tədqiqatın çox işıqlı səhifələrinin yaranmasına səbəb olur.

Okeanın dərinliyindən indi çıxarmaqla onun xəzinə mədənini kasıblatmaq olmaz. Çünki okean dərinliyində zəngin və tükənməz sərvətlər vardır. Nizami poeziyasının gətirdiyi təsir altında Elşad Səfərlinin dərin fikir-düşüncələrindən üzə çıxan qənaətlər də bunu təsdiq edir.

Eışad Səfərli Nizami Gəncəvi poeziyasına vurğunluqla tədqiqat aparır. Demək olar ki, Nizaminin düşüncə sistemindəki ən kiçik məna effektini belə unutmur. Özü bu məqama daha dəqiq işıq salır: *"Çünki şeirin gözəlliyi, dilinin şirinliyi məhz onun məcazlar sistemi, bu sırada mətnin mübaliğəli inikasından ibarət idi ki, bunu da təəssüflər olsun ki, islami zehni düşüncə "yalan" kimi qəbul edirdi və həmin feodal - klerikal, cahil düşüncə şairi məcazsız, mübaliğəsiz yazmağa vadar etməklə, yaranan əsərlərdə bədiiliyin zəifləməsinə, nəticədə ideya - məzmununun sönükləşməsinə və oxucu marağından düşməsinə səbəb olmuşdur".* Göründüyü kimi, Elşad Səfərli şairlərin qarşısında yaradılan süni problemlərə sərt münasibət göstərir. Həqiqətən, şairi siyasi və dini qadağalar çərçivəsində yazıb-yaratmağa vadar etsən, onda heç bir dəyərli əsər arayaərsəyə gəlməz.

Tədqiqatçı Elşad Səfərli Şərq filosoflarının qənaətlərinə, eləcə də, İslam aləminin səmavi kitabına söykənərək *"Türkanə söz"*ün misilsiz ustadı" kitabında oxucunun düşüncə aləminin sərhədlərini genişləndirən məlumatlara meydan verir. İbn Dureydin, Homerin, Məhəmməd peyğəmbərin, Məhəmməd Füzulinin, eləcə də, böyük İslam abidəsi Qurani-Kərimin işığında oxucu üçün qaranlıq görünən mətləblərin üstündən zülmət pərdəsini götürür: *"X əsr filoloqu İbn Dureydin öz analogiyalarına müqayisə nümunələri kimi daxil etdiyi yunan hədislərinin birindəki mükalimədən çəkdiyi misalda Homer barəsində irad şəklində vurğulanmış: "Homer öz şeirlərində yalan deyir" fikri də diqqətçəkəndir. Aristotel Homeri ciddi poeziya növünün ən böyük şairi adlandırmışdır. Kimlərinsə - əgər Homer də yalan danışırsa, deməli, digər şairlərin hamısı da yalançıdır - kimi sillogizm xarakterli, ancaq yanlış əqli nəticəyə yönümlü bir fikir doğurması mümkün ehtimal sayılmalıdır. Eyni zamanda Məhəmmədin Qurani-Kərimdəki şairlərlə bağlı adekvat məzmunda söylədikləri də məhz peyğəmbər sözünün mötəbərliyinə böyük inam tendensiyasına rəğmən ictimai rəydə "şairlər yalan danışır" qənaətini formalaşdıra bilərdi. Füzulinin "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" (biz bu fikrə bir qədər əvvəl də münasibət bildirmişdik) misrası da yəqin elə həmin rəydən qaynaqlanır. Amma bu, heç də "şairin sözünün, əlbəttə, yalan olması" anlamına gətirmir və bu deyimin müstəqim mənada qəbul edilməsinin ifadəsi deyildir".* Elşad Səfərlinin bu mülahizələri imkan verir ki, biz də şair sözünün enerjisini artıran *"yalan"*ın dəyərini uca tutaq.

Tədqiqatçı sözün həqiqi mənasında hər bir fikir üzərində düşünür. Mənaları arayır, axtarır. Hətta eyni şairin fikir təzadlarında belə həqiqəti üzə çıxarmağa çalışır. Elşad Səfərli yazır:- *"Aşağıdakı beyt də bir növ yuxarıdakı misraya davam kimi görünsə də, ancaq əks mənalı, daha çox islami, cahil düşüncəyə üstüörtülü etiraz mahiyyətlidir: "Öl rütbədə qədri - nəzmdir dun, Kim, küfr oxunur kəlamı - mövzun".* Elşad Səfərli bu misraları təsadüfi yada salmır. Füzuli öz dövrünün işığıdır. Amma bəzən onun üçün işığını göstərmək də çətin olur. Demək, bütün zamanlarda qaranlıq və işıq təzad yaradır. Bu elə qarşılaşmadır ki, işığın qələbəsi xeyirə yardım edirsə, qaranlığın qələbəsi şərə kömək edir.

Müəllifin tədqiqatlarında bəzən şərhlər zamanı onun necə daxili-mənəvi yanğı ilə münasibət bildirdiyini də müşahidə etmək mümkündür. Yuxarıda xatırlatdığımız beyti yada salaraq, Elşad Səfərli yazır: *"Bu beytdə feodal mühitində nəzmin qiymətdən düşməsi, şair sözünün küfr (böhtan, şər, yalan - E.S.) şəklində qavranılmasına Füzulinin təəssüf etməsi və ironik münasibəti heç də diqqətdən yayınmır. Əslində bu beytdəki mənzərə "nəzmin xar, əşarın kəsadi - əsər" bulunduğu uzun bir zaman və dövr üçün xarakterik hal idi. Belədə şair kəlamının küfr sayılması təəccüblü görünmür".* Tədqiqatçı doğru deyir. Azmı olub, şair sözü küfr sayılıb? Nəiminin şaqqalanaraq öldürülməsi, Nəsiminin dərisi soyularaq edam olunması və onlarca belə sənətkarların adlarını xatırlatmaq olar ki, poeziyanın bəşəri dəyərləri uca tutmaq yolunda qarşısına nələrin çıxdığını dəqiq və aydın təsəvvür edək. Elşad Səfərli Nizamini tədqiq etsə də, Nizami işığında həm Nizamidən əvvəlki, həm də sonrakı zamanların mühitindəki təzadlara da köklü və əsaslı şəkildə münasibət bildirir. Bir sözlə, *"yalan"*ın məcazi mənadakı qüdrəti tədqiqatın birinci fəsli üçün əsas mövzu olub.

Nizami *"yalan"*ının mahiyyətinə işıq salmaq müasir gəncliyin təbiətinə işıq salmaq deməkdir. Yeni nəsil gənclərə sirlərini öyrətməklə onların mənəvi inkişafına yüksək dərəcədə təkan verə bilərik. Zənnimcə, elə bu səbəbdən Elşad Səfərli *"yalan"*ı yüksək obraz səviyyəsinə qaldıraraq onun bütün çalarlarını oxucuya çatdırmağa çalışır: *"Belə məlum olur ki, mövqeyinə görə hakim islami təfəkkür cahiliyyə dövrü cahilləri qədər də bu poetik "yalan"ın oxucuda poeziya qarşısında mühüm keyfiyyət, şərt qismində onun "heyrət doğurma, heyrətləndirmək" funksiyasını başa düşməmişlər. Yunan dahisi nəzmdə heyrət doğuran, nəzmi oxucuya sevdirən vasitə amilini mübaliğəli təsvirlə - mübaliğəyə yol verib "yalan" təsəvvür yaratmaqla, yəni məcazi "yalan"la bağlayırdı. Aristotel "Poetika"sında müxtəsər söylənilən "yalan"ı şairin təsvirdə böyük məharəti kimi də xarakterizə etmək mümkündür. Elə buna görə də Aristotel Homeri bu "yalançılığına" görə tərifləyirdi və digər istedadlı şairlərin də bu cür məharət nümayiş etdirmələrini məhz dahi yunanlı şair ilə bağlayırdı".* Bəzi ölkələrdə İslami hökmlərin xurafata və fanatizmə yol açması təsadüfi deyil. Çünki sağlam İslami dəyərlər bir çox hallarda hakimlərin əlində istifadə imkanlarına çevrilir. Sağlam İslami dəyərlər qeyri-həqiqi mövqedən şərh olunur. İŞİD-in qanlı cinayətləri, fars şovinizminin anti insani mövqeyi, Əfqanıstan hadisələri... bizi düşünməyə vadar edir.

Nizami Gəncəvi irsi bizə öyrədir ki, insani dəyərləri qorumaq bəşər nəslinin borcudur. Bütün hakimiyyətlər və hökmlər insani dəyərləri qorumağa xidmət etməlidir.

Tədqiqatçı Elşad Səfərli birinci fəslin sonunda görkəmli Azərbaycan aliminə istinadla sözünü yekunlaşdırır: *"Prof. Y.Seyidovun yuxarıda sual şəklində işlədib, özü də cavablandırmaq istədiyi "nəzmdə həqiqət aramaq olmaz", "şeirin yaxşısı onun əl yalanıdır" tezisinə, düşünürük ki, biz özümüz də müəyyən qədər aydınlıq gətirməyə nail olmuş, Nizami şeirindəki "yalan"ın mübaliğə kimi nəzərdə tutulmasını və adekvat məzmun kontekstində "mübaliğə" ilə sinonimik eyniyyət təşkil etdiyini doğru isbatlaya bilmişik".* Elşad Səfərli doğru deyir. *"Türkanə sözün" misilsiz ustadı"* tədqiqatında ustadların fikirlərinə istinadla *"yalan"*ın mahiyyətini açmağa çalışmış və yeri gəldikcə, özünün orijinal düşüncələrini də oxuculara çatdırmağa çalışmışdır.

Nizami Gəncəvi müasir gənclik üçün ilham mənbəyi olaraq qalır. Bəşər nəsli hələ zaman-zaman Nizami irsinə dönüşlərin şahidi olacaqdır.

**17.03.2022**